# SEQ-in Azərbaycanda tətbiqinə dair praktiki təlim

**Bakı, 4 – 5 Aprel 2018**

## Əhatə dairəsinin müəyyən edilməsi üzrə qrup işi

**Ümumi məlumat**

Energetika Nazirliyi Milli Enerji Strategiyasının (MES) hazırlanması təşəbbüs ilə çıxış etmişdir. Strategiyanın məqsədi ölkədə enerji sahəsində prioritetlərin, məsələn 2030-cu ilə qədər daxili enerji tələbatının və müxtəlif enerji mənbələrinin müəyyən edilməsidir. Bu strategiya ölkədə hal-hazırda istifadə edilən alternativ enerji mənbələri və digər əlaqəli mənbələr də daxil olmaqla aşağıdakıları əhatə edir :

- Enerji səmərəliliyi
- Enerji bazarında islahatların aparılması
- Enerji təhlükəsizliyi
- Enerjinin ötürülməsi üçün infrastrukturun yaradılması

Bu məsələlər üzrə MES layihəsi artıq hazırlanıb və digər aidiyyəti qurumlarla razılaşmalar üçün təqdim edilmişdir. Razılaşmalar əldə edildikdən sonra MES layihəsi Milli Məclisə təqdim ediləcək və Prezident tərəfindən imzalanacaqdır.

**Qarşıda quran məsələ**

Enerji Nazirliyi Milli Enerji Strategiyasının (MES) hazırlanması üçün SEQ prosedurlarına başlamağı nəzərdə tutur. Xahiş edirik, işin əhatə dairəsinin müəyyən edilməsinin necə təşkil ediləcəyi (layihə formasında təqdim edilən milli qanunvericiliyin tələbləri nəzərə alınmaqla) və aşağıda qeyd edilən məsələlərlə bağlı təkliflərinizi təqdim edəsiniz:

- Kim işin əhatə dairəsinin müəyyən edilməsi üzrə hesabatı hazırlayacaq?
- Ətraf mühit və səhiyyə orqanlarının ictimaiyyət ilə SEQ-in əhatə dairəsinin müəyyən edilməsi üzrə müzakirələrinin aparılması necə təmin ediləcək?
- Müəyyən əhəmiyyətə malik tranzit sərhəd ilə bağlı hər hansı təsirlər gözlənilir? Əgər gözlənilirsə, bu SEQ prosedurlarında öz əksini necə tapacaq?
- MES layihəsini hazırlayan ekspertlər ilə əhatə dairəsinin müəyyən edilməsi üzrə nəticələr necə əlaqələndiriləcək?